Qeyri-rəsmi tərcümə

**Çex Respublikasının Parlamenti**

**Deputatlar Palatası**

**2013-cü il, 6-cı zal**

**219 saylı Qərar**

**Xarici Əlaqələr Komitəsi**

**25-ci növbədən kənar görüş, 7 fevral 2013-cü il**

Azərbaycanın Xocalı rayonunda törədilmiş qırğının 21-ci ildönümü və Azərbaycan xalqına baş sağlığının verilməsi ilə əlaqədar

26 fevral 2013-cü il tarixində Azərbaycanın Xocalı rayonunda törədilmiş qırğının 21-ci ildönümü tamam olur. Bu tarixdə Ermənistan silahlı qüvvələri bu rayonu işğal etmiş və 613 nəfər müdafiəsiz mülki əhalini amansızcasına qətlə yetirmişdir.

Qətliam barədə bir çox xəbər təşkilatları məlumat vermiş və "Human Rights Watch/Helsinki" təşkilatı tərəfindən Ermənistan silahlı qüvvələrinin müharibə zonalarında mülki əhali ilə rəftara aid adət hüququ normalarını pozması kimi qiymətləndirilmişdir. Bu əməllər dünyada bir çox dövlətlər tərəfindən pislənən insanlığa qarşı cinayətlər idi.

Bu faciəvi hadisə müharibənin səbəb ola biləcəyi dəhşətli qətliamların və bütün dünyada anlaşmaya, qarşılıqlı ünsiyyətə və tolerantlığa davamlı ehtiyacın xatirəsidir.

Bununla belə, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrindən Azərbaycanın ərazisinin işğalına son qoymağı tələb edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri icra olunmamış qalır. BMT Baş Assambleyası, Avropa Parlamenti, Avropa Şurası və ATƏT Parlament Assambleyası öz müvafiq qətnamələrində Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləmişdir.

Çex Respublikasının Parlamentinin Deputatlar Palatasının Xarici Əlaqələr Komitəsi törədildiyi məkan və zamandan asılı olmayaraq müdafiəsiz vəziyyətdə olan mülki əhaliyə qarşı bütün etnik təmizləmə, qətliam və soyqırımı hallarını pisləyir. Biz qəbul edilmiş bütün bu cür əməlləri pisləyən qətnamələrin icrasına çağırırıq. Bu kontekstdə biz Xocalı qətliamını hələ də insanlığa qarşı cinayət kimi tanıyır, onu pisləyir və rədd edirik. Bununla biz bu faciəvi hadisənin 21-ci ildönümünü qeyd edir və Azərbaycan xalqına səmimi baş sağlığımızı çatdırırıq.

Kveta Matusovka, v.r.

Katib

David Vodrazka, v.r.

Komitənin sədri